# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №19 (7469) | 25 noyabr 2019-cu il | Bazar ertəsi | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|




## Xalqa xidmət etmək hər bir dövlət məmurunun borcudur və dəfələrlə demişəm ki, mən Prezident kimi öz vəzifəmi bunda görürəm-xalqa xidmət etmək.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



## Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tərəfindən İcra Hakimiyyətinin akt zalında vətəndaşların qəbulu keçirilmişdir

**Şirvan Şəhər İcra Hakimiyyətinin böyük akt zalında şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tərəfindən vətəndaşların qəbulu keçirilmişdir.**

Qəbulda şəhər İcra Hakimiyyətinin rəhbər və məsul işçiləri, aidiyyəti idarə, müəssisə və xidmət təşkilatlarının rəhbərləri iştirak etmişlər.

Qəbul zamanı 120 nəfər şəhər sakini onları narahat edən məsələlərlə bağlı, xüsusən işlə, yataqxanada yaşayış sahəsi ilə təminat, abadlıq, quruculuq və küçələrin abadlaşdırılması, içməli su xətinin çəkilməsi, çoxmənzilli yaşayış binalarının zirzəmilərinin çirkab sulardan təmizlənməsi və kanalizasiya sistemində mövcud problemlər, müalicə ilə bağlı köməklik göstərilməsi, tədris məsələləri, körpələr evi-uşaq bağçalarına uşaqların qəbulu, ünvanlı dövlət sosial yardımının təyin edilməsi, əmək mübahisələri, özünəməşğulluqla bağlı məsələlər, qəyyumluq məsələləri, Kür çayının daşması ilə əlaqədar fərdi evlərə dəymiş ziyanın aradan qaldırılması, məscidin əsaslı təmiri və digər sosial məsələlərlə bağlı müraciət etmişlər.



Qəbula gələn vətəndaşalrın müraciətləri şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən dinlənilmiş, onları narahat edən məsələlərin aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülmüşdür. Həlli vacib olan problemlərin dərhal, digərlərinin isə araşdırılaraq mövcud qanunvericiliyə uyğun həll edilməsi istiqamətində şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən aidiyyəti qurumların rəhbərlərinə zəruri tapşırıqlar verilmişdir.



## Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tərəfindən vətəndaşların səyyar qəbulu keçirilmişdir

**Şirvan şəhər 16 nömrəli tam orta məktəbdə Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tərəfindən vətəndaşların səyyar qəbulu keçirilmişdir. Qəbulda Şirvan şəhər Polis Şöbəsinin rəisi, polis polkovniki Hikmət Quliyev, şəhərin idarə, müəssisə və təşkilat rəhbərləri iştirak etmişlər.**



Qəbul zamanı vətəndaşlar tərəfindən 17 məsələ qaldırılmışdır. Qəbula gələn vətəndaşların müraciətləri tək-tək dinlənilmiş, onları narahat edən məsələlərin aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Şəhər sakini, təqaüdçü Mətləb Zərbiyev yaşadığı binanın zirzəmisindəki çirkab suyun təmizlənməsinə ciddi ehtiyac olduğunu söylədi.

Sahil Quliyev özünün və həyat yoldaşının işlə təmin olunmasına kömək göstərilməsini xahiş etdi.

Afaq Cəbrayılova isə qardaşının peşəsinə uyğun işlə təmin olunması ilə əlaqədar başçıya müraciət etdi.

Digər müraciət edənlər də diqqətlə, həssaslıqla dinlənildi. Həlli vacib olan problemlərin bəzisinin dərhal, digərlərinin isə araşdırılaraq qanunauyğun formada aradan qaldırılması üçün şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıqlar verilmişdir.

# Hacıqəhrəmanlı qəsəbəsində səyyar qəbul





**Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Şura üzvlərinin, hüquq mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və xidmət təşkilatları rəhbərlərinin iştirakı ilə Hacıqəhrəmanlı qəsəbəsində yerləşən 12 nömrəli tam orta məktəbdə səyyar qəbul keçirdi.**

Qəbulda həmin qəsəbədə yaşayan şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, məktəbdə işləyən müəllim və texniki işçilər, nüfuzlu ağsaqqallar, ziyalılar, gənclər, kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan iş adamları, evdar qadınlar da daxil olmaqla, ümumilikdə 200 nəfərdən çox vətəndaş iştirak etdi.

Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov öncə, qəbulda iştirak edən qəsəbə sakinlərini salamladı. Onlara ən xoş arzularını bildirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın hər bir Azərbaycan vətəndaşına, insanlara göstərdikləri hərtərəfli diqqət və qayğıdan danışdı. Bu sahədə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətləri, regionların sosial-iqtisadi inkişafı, dövlət proqramları, sosial layihələr, verilən fərman və sərəncamlar, onların əhatə dairəsi barədə ətraflı çıxış etdi. Şirvanlıların dövlətə, dövlətçiliyə həmişə sadiq olduqlarını, prezident seçkilərində fəal iştirak edib düzgün seçim etdiklərinə və cənab İlham Əliyevə səs verdiklərinə görə öz təşəkkürünü bildirdi. 23 dekabr 2019-cu il tarixdə keçiriləcək Bələdiyyə seçkilərində də fəal iştirak etmələrini tövsiyə etdi.

Qəbluda qəsəbə sakinləri onları narahat edən məsələlərlə bağlı, xüsusən işlə təminat, içməli su xəttinin çəkilməsi, yaşayış sahəsi ilə təminat, abadlıq-quruculuq işləri, qəsəbə uşaq bağçasının tikilməsi, iş yerlərinin yaradılması, ünvanlı dövlət sosial yardımı, pensiya təminatı özünəməşğulluqla bağlı məsələlər, qəyyumluq və digər sosial problemlərlə bağlı müraciətlər etmişlər.

Xavər Nəsirova və Fatma Abbasova oğlanlarının işlə təminatı məsələsi ilə bağlı başçıya müraciət etdilər. Təranə İbadova evinin sənədləşdirilməsi, işıq və qaz xəttinin çəkilişi ilə əlaqədar başçıdan xahiş etdi.

Qəbula gələn hər bir vətəndaşın müraciəti şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən fərdi qaydada dinlənilmiş, həlli vacib olan problemlərin dərhal, digərlərinin isə araşdırılaraq mövcud qanunvericiliyə uyğun həll edilməsi istiqamətində aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verilmişdir.

**«İŞIQ»**
**Ə.AXUNDOV (foto)**




# YENİ AZƏRBAYCAN PARTİYASININ YARADILMASININ 27-Cİ İLDÖNÜMÜ İLƏ BAĞLI TƏDBİR KEÇİRİLDİ

**Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 27-ci ildönümü münasibətilə noyabrın 21-də YAP Şirvan şəhər təşkilatının akt zalında tədbir keçirilmişdir.**

Öncə Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Şura üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri ,YAP şəhər təşkilatının fəalları YAP-ın qurucusu, ulu öndər Heydər Əliyevin şəhərimizin mərkəzindəki abidəsini ziyarət etmiş, ətrafina tər çiçəklər düzərək əziz xatirəsinə dərin hörmət və ehtiramlarını bildirmişlər.

Akt zalında davam edən tədbirdə YAP-ın ölkəmizin ictimai-siyasi həyatında genişmiqyaslı fəaliyyətindən bəhs edən film nümayiş olunub.

Şirvan şəhər İcra Hakimiyyəti başçısının birinci müavini, Yeni Azərbaycan Partiyası Şirvan şəhər təşkilatının sədri Samid Abıyev giriş sözü ilə çıxış etdi.

Sonra partiyanın qurucusu, ümummilli lider Heydər Əliyevin və YAP-ın yaranmasından ötən dövr ərzində dünyasını dəyişən həmfikirlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.

Şirvan Şəhər İcra Hakimiyyəti başçısı İlqar Abbasov YAP-ın keçdiyi şərəfli yoldan, ötən dövr ərzində qazandıgı ugurlardan danışıb.

Başçı dedi ki,bu gün Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatında özünəməxsus yeri və rolu olan Yeni Azərbaycan Partiyasının yaranmasından 27 il ötür.

Mən Sizi və Sizin simanızda partiyamızın bütün üzvlərini Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Ötən 27 il ərzində Yeni Azərbaycan Partiyası çox mühüm inkişaf yolu keçmişdir. Əslində, bu yol müstəqil Azərbaycanın keçdiyi tarixi inkişaf yoludur. Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi, istiqlaliyyətimizin dönməzliyinin təmin olunması və hazırda uğurla həyata keçirilən geniş və çoxşaxəli inkişaf məhz YAP-ın lideri, müstəqil Azərbaycan dövlətinin banisi ümummilli lider Heydər Əliyevin adı və onun siyasi kursunu uğurla davam etdirən Yeni Azərbaycan Partiyasının sədri, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin fəaliyyəti ilə bağlıdır.

Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi missiyasını şərtləndirən əsas amillərdən biri ondan ibarətdir ki, partiyaya böyük dövlət və siyasi xadim ulu öndər Heydər Əliyev rəhbərlik edirdi.

1992-ci ilin oktyabr ayının 24-də ulu öndər Heydər Əliyevin məşhur 91-lər kimi tanınan ziyalıların ona ünvanladıqları tarixi müraciətinə cavab olaraq, Yeni Azərbaycan Partiyasının yaranmasına və ona rəhbərlik etməyə razılıq verməsi xalqımızda yaranmış ümidsizlik sindromunu dağıtdı və gələcəyə olan inam hissini yenidən gücləndirdi. YAP qısa müddətdə güclü siyasi partiyaya çevrildi.

1992-ci ilin noyabr ayında Yeni Azərbaycan Partiyasının yaranması tarixi--zəruri bir addım idi. Bu partiyanın yaranması ilə Azərbaycanın ictimai-siyasi həyatında yeni bir mərhələnin başlanığıcı qoyuldu. YAP-ın qəbul etdiyi Proqramında irəli sürülən müddəalar Azərbaycanı böhran məngənəsindən xilas etməyin ən düzgün yolunu müəyyənləşdirdi.

Yeni Azərbaycan Partiyasının sədri, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanda yetişmiş vətəndaş müharibəsinin qarşısını aldı, xaosa, anarxiyaya son qoydu, dövlət müstəqilliyini qoruyub saxladı, seperatcı qüvvələri, cinayətkar ünsürləri zərərsizləşdirdi.

Dövlətlə xalqın birliyi, yekdilliyi təmin edildi. 1994-cü ilin may ayında cəbhədə atəşkəsə nail olundu. Dövlət çevrilişlərinə göstərilən cəhdlərin qarşısı alındı.

Azərbaycanda müstəqil dövlətçilik ənənələrini formalaşdıran ümummilli lider Heydər Əliyevin xalq qarşısında ən böyük xidməti respublikamızın gələcək uğurlarına təminat yaratması, cənab İlham Əliyevin timsalında özünün qurub-yaratdığı, möhkəmləndirdiyi dövləti, parlaq sabahlara aparacaq layiqli varisi yetişdirməsidir. Bu baxımdan, ictimai maraqlardan çıxış edən ulu öndər Heydər Əliyev xalqa 2003-cü il 1 oktyabr tarixli müraciətində məhz bu meyarları əsas götürərək cənab İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü bildirmiş, respublikanın gələcək taleyi baxımından vacib olan bir çox işlərin onun tərəfindən uğurla başa çatdırılacağına inamını ifadə etmişdir.

Yüksək intellektli, proqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən cənab İlham Əliyev enerjili və təşəbbüskar bir şəxs kimi uğurla həyata keçirdiyi dövlət siyasətini milli maraqlar üzərində qurur.

Yeni Azərbaycan Partiyasının sədri, Prezidentimiz cənab İlham Əliyev idarəetmə sistemine novator düşüncə tərzi, dinamizm və müasirlik çalarları gətirmiş, hökumətin həyata keçirdiyi tədbirlərin əhatə dairəsini və vaxtını düzgün müəyyənləşdirməklə, icrasını şəxsi nəzarətində saxlamış, ölkənin strateji resursların milli inkişafa təkan verən qlobal layihələrin reallaşmasına səfərbər etmişdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurlu rəhbərliyi ilə Azərbaycan dünya iqtisadiyyatına inteqrasiya edir. Ən mühüm beynəlxalq qurumların üzvü kimi dünya siyasətində böyük nüfuz və söz sahibinə çevrilir. Azərbaycanın dünyanın 155 dövlətinin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, Bakıda ilk Avropa Oyunlarının, İslam Həmrəylik Oyunlarının, Beynəlxalq səviyyəli musiqi müsabiqələrinin və idman yarışlarının keçirilməsi, türkdilli ölkələrin dövlət başçılarının, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının, dünya dini liderlərin zirvə görüşlərinin və digər humanitar forumların keçirilməsi bunu bir daha təsdiq edir.

Prezidentimiz cənab İlham Əliyevin irəli sürdüyü təklif, tövsiyə və təşəbbüslərin xalq tərəfindən müdafiə olunması YAP-ın cəmiyyətdə rolunu daha da artırır.

2003-cü ilin Prezident seçkiləri ərəfəsində ümummilli lider Heydər Əliyev xalqa müraciətində deyirdi: "Mən İlham Əliyevə özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". İndi bütün xalq İlham Əliyevə inanır və onun rəhbərliyi altında Azərbaycanın xoşbəxt gələcəyinə böyük ümidlər bəsləyir.



Əminəm ki, ümummilli lider Heydər Əliyevin yaratdığı qüdrətli və xalq tərəfindən müdafiə olunan Yeni Azərbaycan Partiyası, möhtərəm prezidentimiz, YAP-ın sədri cənab İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanı daha yüksək zirvələrə qaldıracaqdır.

Sonra YAP Şirvan şəhər təşkilatının sədr müavini, şəhər Bələdiyyəsinin məsul işçisi P.Nəbiyev, Şirvan şəhər Gənclər və İdman idarəsinin rəisi A.Quliyev, 14 nömrəli tam orta məktəbin direktoru S.İsmayılova, Qarasu Əməliyyat Şirkətinin Texniki təhlükəsizlik və ətraf mühitin mühafizəsi şöbəsinin rəisi, YAP ərazi təşkilatının sədri R.Ələkbərov çıxış etdilər.

Natiqlər ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, son 16 ildə ölkəmizdə bütün sahələrdə möhtəşəm nailiyyətlərin əldə olunduğunu qeyd etmişlər.

Tədbirdə ölkə Prezidenti, YAP-ın sədri İlham Əliyevə təbrik məktubu qəbul olundu.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**

# Bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaşların sərbəst toplaşmaq azadlığının təmin edilməsi barədə

## Şirvan Şəhər İcra Hakimiyyəti başçısının Sərəncamı

**Demokratik seçkilər sabit vətəndaş cəmiyyətinin və hər bir dövlətin inkişafının əsasını təşkil edir. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasi bu sahədə əsas prioritetləri müəyyən etmişdir. Onları rəhbər tutaraq ölkəmizdə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə azad və mütəmadi keçirilən seçkilərin hüquqi bazası yaradılmışdır. Ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin daha mükəmməl həyata keçirilməsinə hərtərəfli şərait yaradılmış, azad və demokratik mühit formalaşmış, siyasi və ideoloji plüralizm, söz, mətbuat, informasiya və sərbəst toplaşmaq azadlığı təşəkkül tapmış, vətəndaşlara dünya birliyi tərəfindən qəbul edilmiş ictimai və siyasi hüquqlar verilmişdir. Respublikamızda hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq qəbul edilmiş, "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. 23 dekabr 2019-cu il tarixə təyin edilmiş Bələdiyyə seçkiləri ilə əlaqədar dinc toplantıların (yığıncaq, mitinq, nümayiş) təşkil edilməsi və keçirilməsi zamanı baş verə bilən qanun pozuntularının qarşısını almaq, həmin toplantıların qanunvericiliyə uyğun keçirilməsini, bu sahədə aidiyyəti orqanların üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsini, "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanunun və Azərbaycan Respublikasının Seçki Məcəlləsinin müddəalarının icrasını təmin etmək məqsədilə**

## QƏRARA ALIRAM:

1."Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanunun və Azərbaycan Respublikasının Seçki Məcəlləsinin müdəalarının icrası təmin edilsin.

2."Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bələdiyyə seçkiləri ilə əlaqədar öz səlahiyyətləri çərçivəsində toplantılarda iştirak edən vətəndaşların siyasi mənsubiyyətinə görə təqib olunmasına yol verilməsin.Belə fakt aşkar olunduqda həmin şəxsin (şəxslərin) qanunvericiliyə uyğun olaraq məsuliyyətə cəlb olunması üçün zəruri tədbirlər görülsün.

3.Ayrı-seçkiliyə, ədavətə və zorakılığa çağırışlarla müşayiət olunan milli, irqi və ya dini ədavəti, müharibəni təbliğ edən toplantıların keçirilməsi qadağan edilsin.

4.Siyasi məqsədlərlə dinc toplantı keçirmək və təbliğat-təşviqat işləri apaqmaq aşağıdakı halda qadağan edilsin:

-Bələdiyyə seçkiləri gününə 24 saat qalmışdan seçki günü səsvermə məntəqələri bağlananadək.

5.Toplantıların(yıgıncaq, mitinq, nümayiş) hər hansı birini təşkil edən şəxs və ya şəxslər toplantıların forması, ümumi məqsədi keçirilmə yeri və vaxtı, iştirakçıların təxmini sayı, təşkilatçıların adı, soyadı, atasının adı, ünvanı və əlaqə telefonları göstərilməklə toplantının keçiriləcəyi gündən azı 5 (beş) gün əvvəl Şirvan Şəhər İcra Hakimiyyətinə öz imzaları ilə təsdiq edilmiş yazılı müraciət etsinlər.

6. Şirvan şəhərində və Hacıqəhrəmanlı qəsəbəsində vətəndaşların sərbəst toplaşmaq azadlığını təmin etmək məqsədilə açıq və qapalı şəraitdə keçiriləcək toplantıların və təşviqat vasitələrinin yerləşdirilməsi üçün müəyyən edilmiş ərazilərin və yerlərin dislokasiyası təsdiq edilsin. (Dislokasiya əlavə olunur).

-dinc toplantıların qapalı yerlərdə keçirilməsi üçün saat $12^{00}$-dan $14^{00}$-dək, açıq yerlərdə saat $11^{00}$-dan $13^{00}$-dək vaxt müəyyən edilsin:

7. Şirvan şəhər Polis şöbəsinə tapşırılsın.

-toplantının təhlükəsizliyini təmin etmək məqsədilə yığıncağın, mitinqin, nümayişin, küçə yürüşünün və ya piketin keçirilməsinə bir gün qalmış toplantı yerinə baxış keçirsin.

-toplantı zamanı ictimai asayişin qorunmasını, ictimai qaydanın bərpa edilməsini və insanların təhlükəsizliyini təmin etsin.

8.Sərəncamın icrasına nəzarət Şirvan Şəhər İcra Hakimiyyəti başçısının I müavini S.Abıyevə həvalə edilsin.

9.Sərəncam yerli "İşıq" qəzetində dərc edilsin.

**İlqar ABBASOV,**
**Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı**

# Şirvan şəhərində «Sərbəst toplaşmaq azadlığı haqqında» Azərbaycan Respublikası Qanuna uyğun olaraq toplantı keçirmək üçün ayrılan açıq, qapalı yerlərin və təşviqat lövhələrinin

## D i s l o k a s i y a s ı

| İHB-nın verdiyi sərən-camın tarixi | Müəyyən edilmiş yerlərin ümumi sayı | O cümlədən | | | Toplantının keçirilməsi üçün müəyyən edilmiş yerlər | | | | Təşviqat aparılması (stendlər quraşdırılması) üçün müəyyən edilmiş yerlər |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Açıq yer-lərin sayı | Qapalı yerlə-rin sayı | Təşviqat aparılması üçün müəyyən edilmiş yerlərin sayı | qapalı yerdə saat $12^{00}$-dan $14^{00}$-dək | tutum | açıq yerdə saat $11^{00}$-dan $13^{00}$-dək | tutum | |
| | 4 | 2 | 2 | 34 | Şirvan Olimpiya İdman Kompleksi-nin idman zalı<br>Hacıqəhrə manlı qəsəbə klubu | 1000<br>150 | Şirvan Olimpiya İdman Kompleksinin stadionu<br>Hacıqəhrəmanlı qəsəbə klubunun qarşısında meydan | 8000<br>600 | -Hacıqəhrəmanlı qəsəbə klubunun qarşısında (1№-li s/m);<br>-Yağ-piy ASC (3№-li s/m);<br>-13№-li tam orta məktəb(5№-li s/m);<br>-Mədəniyyət evinin qarşısı (7№-li s/m);<br>-Bayramlı qəsəbə 3 №-li tam orta məktəbin qarşısı (9№-li s/m.);<br>-Sürücülük məktəbi(11№-li s/m);<br>-16№-li TQİ(13№-li s/m);<br>-9№-li tam orta məktəb (15№-li s/m);<br>-10№-li tam orta məktəb(17№-li s/m):<br>-«Nərgiz» u/bağ.(19№-li s/m);<br>-18№li təbiət humanitar təmayüllü məktəb-lisey (21№-li s/m);<br>-«Şirvan OYL BMM-nin yaşayış kompleksi.(23№-li s/m);<br>20№-li tam orta məktəb(25№-li s/m<br>-16№-li tam orta məktəb(27№-li s/m);<br>-«Kür»mehmanxanası (29№-li s/m);<br>-18 №-li təbiət humanitar təmayüllü liseyin II korpusu (31 №-li s/m<br>Müdafiə Sənayesi Nazirliyi Sosial Xidmətlər idarəsininii 8 saylı MİS yataqxanası (34№-li sm)<br>- 4№-li tam orta məktəb(2№-li s/m);<br>-2№-li tam orta məktəb(4№-li s/m);<br>-14№-li tam orta məktəb(6№-li s/m);<br>-1№-li tam orta məktəb (8№-li s/m),;<br>-10 saylı s/m. inzibati binası (10№-li s/m);<br>-11№-li tam orta məktəb (12№-li s/m);<br>-Şəhər poliklinikası (14№-li s/m);<br>-«Şirvan» k/t (16№-li s/m);<br>-Müdafiə Sənayesi Nazirliyi Sosial Xidmətlər İdarəsinin 8 saylı MİS yataqxanası (18№-li s/m);<br>-Şirvan Peşə liseyi (20№-li s/m);<br>-21№-li tam orta məktəb (22№li s/m);<br>-Mərkəzi kitabxana(24№-li s/m);<br>-Uşaq Gənc.İd.Məktəbi (26№-li s/m);<br>Şirvan Dövlət İqtisadiyyat və Humanitar kolleci (28№-li s/m);<br>-5 N-li orta məktəb (30 N-li s/m)<br>-Uşaq Gənclər inkişaf Mərkəzi (32№-li sm)<br>-5№-li orta məktəb (33№-li s/m) |

**İlqar ABBASOV, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı**

# YENİ NÜMUNƏVİ MƏHƏLLƏNİN AÇILIŞI



**Yeni Azərbaycan Partiyasının 27-ci ildönümü günündə-noyabrın 21-də Tofiq İsmayılov küçəsi 5 və 19 nömrəli və qonşuluqdakı binaların onlarla sakini əsl bayram sevinci yaşadılar.Şəhər üzrə sayca 30-cu nümunəvi məhəllənin açılışı məhz həmin gün burada baş tutdu.**

Tədbir başlamazdan öncə bura toplaşanlar adı çəkilən binaların həyətinin bir neçə ay əvvəlki acınacaqlı, antisanitariya, səliqəsiz vəziyyətini əks etdirən foto stendə baxdılar. Bu günki vəziyyəti görüb nümunəvi məhəllə salanlara təşəkkürlərini bildirdilər.

30-cu nümunəvi məhəllədə uşaqlar, yeniyetmələr, yaşlıların mənalı istirahətləri üçün əlverişli şərait yaradılmışdır. Yellənсəklər, idman qurğuları uşaqların ixtiyarındadır. Payızın küləkli, soyuq keçməsinə baxmayaraq qadınlar, yaşlılar rəng qoxusu getməyən oturacaqlarda əyləşib ətrafdakı gözəllikləri seyr edirdilər.

Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Şura üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri yeni nümunəvi məhəllənin açılışı münasibətilə keçirilən tədbirə qatılmışdılar.

Başçı tədbirə toplaşanları salamladı, onları Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü və yeni nümunəvi məhəllənin açılışı münasibətilə təbrik etdi. Sonra dedi ki, ölkə başçısı cənab İlham Əliyev insanların rahatlığını, sağlamlığını təmin etmək, sosial, maddi vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə məqsədyönlü tədbirlər həyata keçirir. Cari ilin əvvəlindən ölkəmizdə həyata keçirilən islahatlar nəticəsində əməkhaqqı, pensiya, müavinətlər, təqaüdlərin artırılması, aztəminatlı insanların, tələbələrin, əlillərin, şəhid ailələri və veteranların



sosial müdafiəsinin təşkili buna bariz nümunədir. İnsan amili, insanlara qayğı ölkə Prezidentinin həmişə diqqətindədir. Çoxmərtəbəli binaların damlarının yenidən qurulması, fasadların, giriş qapılarının təzələnməsi məqsədi ilə görülən işlər də sürətlə aparılır.

Birinci vitse- prezident Mehriban xanım Əliyeva da bu sahədə imkanlardan maksimum istifadə edir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin bizə tapşırıq və tövsiyələrindən biri insanların rahatlığını, mənalı istirahətlərini təmin etmək üçün tədbirlər görməkdir.Nümunəvi məhəllənin salınması da bu tələblərdən irəli gəlir. Cənab Prezidentin məqsədi budur ki, hər bir sakin-ahıl, cavan, məktəbli, bağça uşağı da mənzilindən çıxıb həyətə düşəndə gözoxşayan mənzərə, istirahət üçün əlverişli şəraitlə rastlaşsınlar. Bir sözlə, sakinlər ilin bütün fəsillərində öz məhəllələrində rahat dincələ bilsinlər. Daha müəyyən məsafə qət edib iri parklara getməsinlər.

Bu gün yeni nümunəvi məhəlləni istifadəyə veririk. Burada xidməti olan hər bir kəsə təşəkkür edirəm.

Siz sakinlərdən xahişim budur: qurulanı qoruyub saxlamaq lazımdır. Min zəhmət bahasına ərsəyə gəlmiş məhəllənin, onun yaşıllığını qoruyub saxlamaq sizdən asılıdır. Axı, bu məhəllə sizin olub, bu gün də sizindir. Və sizin övladlarınızındır.

Bir vacib məsələni də qeyyd etmək istəyirəm. Şirvanlılar ötən il Prezident seçkilərində öz vətəndaşlıq borclarını layiqincə yerinə yetirmişlər. İnanıram ki, dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində də fəallıq göstərəcəksiz. Bu siyasi kompaniyanı da uğurla başa vuracağıq. Sizləri bir daha təbrik edirəm.

Sonra məhəllə sakinlərindən Səməndər İsmayılov, Aidə Bayramova, Tapdıq Əliyev, Xalidə Mahmudova çıxış etdilər. Onlar respublikamızda aparılan möhtəşəm abadlıq, quruculuq işlərindən danışdılar. Bunu şəhərimizin timsalında da aydın gördüklərini söylədilər. Diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə, Birincit vitse- prezident Mehriban xanım Əliyevaya və şəhər rəhbərliyinə minnətdarlıqdarını bildirdilər.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**

*23 dekabr bələdiyyə seçkiləri günüdür*

# "Sənin səsin-sənin gələcəyindir"



**2019-cu il 23 dekabr Bələdiyyə seçkiləri günüdür. Seçki ərəfəsində hər kəs üzrərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışır. Şirvan şəhər Gənclər və İdman idarəsi tərəfindən "Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının 5.7.3 yarımbəndinin icrası ilə əlaqədar ilk dəfə səsverəcək gənclər arasında maarifləndirmə işinin aparılması, həmçinin gənclərin seçkilərdə fəallığının təmin edilməsi məqsədilə bir sıra silsilə tədbirlər keçirilir.**

Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində, Hacıqəhrəmanlı qəsəbəsində və Şirvan Peşə Liseyində təşkil olunan tədbirlərdə iştirak edən Gənclər və İdman idarəsinin rəisi Azər Quliyev, Hacıqəhrəmanlı qəsəbə İcra Nümayəndəsi Pünhan Mənsimov, 46 saylı dairə seçki komissiyasının nümayəndəsi Elçin Həsənov, Şirvan şəhər Gənclər və İdman İdarəsinin nəzdindəki Uşaq Gənclər İdman Məktəbinin direktoru Samir Əhmədov, Şirvan Gənclər Evinin əməkdaşı Nurlan Qədimov, Gənclər üçün Təhsil Mərkəzinin Aran Regional ofisinin rəhbəri Yusif Poladov çıxış edərək ilk dəfə səsverəcək gənclərə seçkilər haqqında geniş məlumatlar verdilər. Onlara seçki hüquqlarından necə istifadə etməyi və seçkilərdə əsl vətənpərvər gənc olaraq fəallıq göstərməyi tövsiyə edən natiqlər hər bir gəncin seçkilərdə iştirakını vətəndaşlıq borcu olaraq qəbul etməyi lazım bildilər.

Keçirilən görüşlərdə ilk dəfə səs verəcək gəncləri maraqlandıran suallar cavablandırıldı və onlara uğurlar arzu olundu.

**Hüseyn İsmayılov,**
**İdarədə baş məsləhətçi**

# MÜƏLLİM-TƏŞKİLATÇI VƏ İCTİMAİYYƏTÇİ



**Alim Nadir oğlu Əkbərov idmanın karate, boks, güləş və digər növlərində qüvvəsini sınayaraq yüksək nailiyyətlər qazanmışdır.**

Kiçik yaşlarından sərbəst güləş üzrə məşqçi Sahib Dadaşovun rəhbərliyi ilə məşqlərə başlayıb. Şəhər, zona, respublika yarışlarının qalibi, bürünc və gümüş mükafatçısı olur. O, eyni zamanda boksa da maraq göstərir. Mərhum Oqtay Eyvazovdan boksun sirlərini öyrənir və 1-ci dərəcəli bokçu normasını ödəyib. Tennis üzrə də birincilik qazanan Alim sonradan 1-ci dərəcəli basketbolçu kimi də tanınır. Karate ilə də məşğul olaraq 1-ci dan sahibi olur.

A.Əkbərov 14 iyul 1960-cı ildə Şirvan şəhərində ağxalatlılar ailəsində dünyaya göz açıb. Ailədə 5 qardaş, 4 bacı olublar. Orta məktəbi yaxşı qiymətlərlə bitirən Alim ali təhsil almağa tələsmir. Şəhərdəki 28 nömrəli texniki peşə məktəbinə qəbul olub avtomobil çilingəri sənətinə yiyələnir, sürücülük məktəbini də qurtarır. Sonra hərbi xidmətə yollanır. Öyrəndiyi idman burada karına gəlir. Sərbəst güləşdə 67 kq çəkidə diviziya çempionu olur.Hərbi xidmətdən qayıtdıqdan sonra Uzaq rabitə zavodunda fəhlə işləyir və eyni zamanda idmanı da unutmur.1992-ci ildə adlı-sanlı idmançılar Vaqif Nəsibov, Eduard Məmmədov və Azər Soyla kinq boks idman növünü Şirvan şəhərində yaradıb inkişaf etdirir. Vətənin başını «qara buludlar» alanda könüllü olaraq Şuşa, Füzuli və Ağdam rayonlarında kəşfiyyatçı kimi fəaliyyət göstərir. Müharibədən qayıtdıqdan sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi Akademiyasına qəbul olub qiyabi yolla oranı da bitirir.

Alim müəllim 1999-cu ildən Məftun Osmanov adına 20 nömrəli tam orta məktəbdə fiziki tərbiyə müəllimi işləyir və həm də məktəbin idman rəhbəridir. Şagirdlərin daha çevik və sağlam olmaları üçün əzmlə çalışır. Yetişdirmələrindən boks üzrə idman ustası Nurəddin Əlibəyli, Kinq boksda Muradiv Nuriyev, karatedə Nazim Hüseynov 1-ci dan kəmər sahibi, boks üzrə məşqçi müəllim işləyən idman ustası Rəşad Bünyatov məhz onun yetirmələridir.

YAP-ın üzvü, məktəb həmkarlar təşkilatının sədri A.Əkbərovun pedaqoji kollektivdə də hörməti böyükdür. Məktəbin direktoru, Əməkdar müəllim Eyyub Allahverdiyev onun haqqında bunları dedi:

-Alim müəllim məktəbimizin fəxridir. İnamla deyə bilərəm ki, iyirmi ilə yaxındır burada çalışır. Məktəb və şəhər tədbirlərində yorulmaq bilmədən əsl təşkilatçı kimi fəaliyyət göstərir. Məktəbimizin «İlin ən yaxşı təhsil müəssisəsi» adını qazanmasında onun böyük zəhməti vardır

Alimin atası Nadir, anası Rəfiqə xanım uzun illər insanların sağlamlığı keşiyində durmuşlar. Oğlanları Abdulrahib, qızları Sevinc hazırda valideynlərinin yolunu davam etdirirlər. Alim isə gənclərimizin fiziki cəhətdən daha güclü və sağlam olmasına, onların əsl idmançı kimi yetişməsinə çalışır.

Alim bu gün də gənclik həvəsi ilə çalışır, şagirdlərini ailəyə, vətənə məhəbbət ruhunda tərbiyə edir, idmana marağı olanları bu sahəyə yönəldir.

Alim müəllim həm də mehriban ailə başçısı, qayğıkeş babadır. Bir oğlu, iki qızı var. Qızları Səkinəxanım və Fatimə müəllim, oğlu Allahverdi isə Qaz istismarı idarəsində nəzarətçi operatordur. Üç yaşlı nəvəsi Mehdi nəslin ilk səvinci və davamçısıdır.

**Musaxan HEYDƏRLİ,**
**ictimai müxbir,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# 34 YAŞLI GƏNCƏ KÖMƏK EDİN!

**Hörmətli «İŞIQ» qəzeti redaksiyası! Şəkildə gördüyünüz 34 yaşlı cavan oğlan Şirvan şəhəri, Nizami küçəsi 57 saylı evdə yaşayan Ələsgərov Ələsgər Rafiq oğlu uzun illərdir ki, yataq xəstəsidir. Uzun illərin müalicəsi səmərə verməyib.**



Tibb ocaqlarını gəzmək, xəstəni müalicə etdirmək imkansız ailə üçün olduqca çətindir, dözülməzdir. Amma nə etmək olar. Ananın arzusu ciyərparasını yeriyən görmək istəyir. Həkimlərin dediyinə görə Ələsgərin onurğa sütununda əmələ gəlmiş xəstəliyin müalicəsi var. Xarici ölkələrdəki xəstəxanaların birində, elə Türkiyədə cərrahiyyə əməliyyatı nəticəsində Ələsgəri ayağa qaldırmaq mümkündür. Amma Ələsgərovlar ailəsinin buna maddi imkanı yoxdur. Atası Rafiq, anası Səadət xanım ümidlərini Allaha, bir də imkanlı, mərhəmətli insanlara bağlayıblar.

Ələsgərovlar ailəsi Bank Respublikanın Şirvan filialında Ələsgərin adına hesab açdırmışlar.

Ələsgərov Ələsgər Rafiq oğlunun adına açılmış hesab belədir.
380194402172351401
AZE14756885

Mərhəmətli insanlar! Bu cavana, kömək edək. Allah əl tutanlara birə on verər.

**İdris XURŞUDOV,**
**əmək veteranı**

## ETIBARSIZDIR

ƏƏSMN yanında DSMF-in Şirvan şəhər şöbəsi tərəfindən Yahyayev Fariz Fazil oğluna şöbə tərəfindən 26.05.2014 tarixində verilmiş 121773 saylı əlillik vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şirvan şəhər sakini Quliyev Mehman Vəli oğlunun adına Dövlət Əmlakının Özəlləşdirməsi Departamenti tərəfindən verilmiş Xaqani küçəsi 20 nömrəli ünvanda 185,3 kvadratmetrlik qeyri-yaşayış sahəsinin şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Şirvan şəhər sakini Quliyeva Həqiqət Nüsrət qızının adına Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Şirvan ərazi idarəsi tərəfindən verilmiş Şirvan şəhəri Xaqani küçəsi 1A-da yerləşən 92,16 kv.m. qeyri yaşayış binasının çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS ORQANLARINDA ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

**Respublikanın şəhər, rayon polis orqanlarında Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla polis sahə rəisi vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirir.**

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla) «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə»də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları (daxili işlər və digər hüquq mühafizə orqanlarında zabit vəzifələrindən xaric edilmiş, Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayan və qeydiyyatda olan şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Müsabiqə qaliblərinin təyinatı zamanı ilk növbədə həmin rayonda yaşayış şəraiti olanlara üstünlük



verilər və təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcəkdir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2019-cu il noyabr ayının 18-dən dekabr ayının 18-dək htpp//www.mia.gov.az/index.php?/az/content/29799/ ünvanda yerləşdirilmiş elektron ərizə formasını dolduraraq elektron poçt vasitəsi ilə bki@mia.gov.az <mailto:bki@-mia.gov.az> ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar idarəsinə göndərməlidirlər.

Elektron ərizələr Daxili İşlər Nazirliyində qeydiyyatdan keçirilərək namizədlər barədə məlumatlar Baş Kadrlar idarəsi tərəfindən öyrənildikdən sonra müvafiq qərar qəbul edilir.

Namizədlər məlumatlandırıldıqdan sonra aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

-şəxsiyyət vəsiqəsi;
-ali təhsil haqqında diplom;
--hərbi bilet (kişilər üçün);
-əmək kitabçası (olanlar üçün);

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

«Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi qaydaları»,test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödənilməcək normativlər Daxili İşlər Nazirliyinin www.mia.gov.az ünvanlı Veb saytında yerləşdirilmişdir.

**Şirvan şəhər Polis Şöbəsi**

## "İŞIQ"- 2020
## ƏZİZ OXUCULAR!

2020-ci ilin I yarısı üçün Şirvan şəhərinin ictimai-siyasi qəzeti "İŞIQ"a abunə yazılışı davam edir. 6 aylıq abunə haqqı 14 manatdır.
"İşıq"a KAPİTAL BANKIN Şirvan şəhər filialında və 6 saylı regional mətbuatı yayımı idarəsində yazılmaq olar.
H\ h- AZ39AIIB 33060019444100281141.
VÖEN -2100104521. İndeks 66858
"İşıq"a- öz qəzetinizə abunə yazılmağı unutmayın!

Baş redaktor:
F.N.RƏHİMOV

Təsisçilər:
Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 850